# AĞRINI YAŞADAN HƏYƏCANLAR

Azərbaycan cəmiyyəti, Azərbaycan xalqı böyük Sovet dövlətinə etibar etmişdi, inanmışdı. Və belə bir inam yükü var idi ki, ən çətin məqamda belə Sovet dövləti və təbii ki, Sovet hakimiyyəti onun haqqını-hüququnu müdafiə edəcək. İş burasında idi ki, bu inamın müqabilində Azərbaycan xalqı daralan, yığılan bir mühasirə mühiti gördü. Bu mühasirə mühiti, Azərbaycan xalqının istək və arzularının üfüqlərini daraldırdı. Bir sözlə proses o şəkildə gedirdi ki, adamlar daxili, mənəvi tələbatının istəyi olaraq dilə gətirdikləri şüarların qarşısında müqavimət görürdülər.

Həmin dövrdə Azərbaycanın görkəmli simaları - əlbəttə, ziyalıları, ədəbiyyat və incəsənət xadimləri, sənət adamları artıq böyük ictimai həyatda görünməkdə idilər. Ona görə də ayrı-ayrı qələm sahibləri, söz sahibləri ən azı şahidi olduqları mərhələni yazıya gətirə bilirdilər.

Şəfəq Nasirin 1991-ci ilin yanvar ayına təsadüf edilən qeydləri yalnız onun özünün mənəvi təəssüratı kimi qəbul oluna bilməz. Ona görə ki, bir Azərbaycan vətəndaşı olaraq missiyasını bir tərəfə qoysaq belə, onun yazıçı missiyası tələb edirdi ki, o, cəmiyyətdə gedən porosesləri, ən başlıcası şahidi olduğu hadisələri qələmə alsın, yazıya gətirsin.

Bəlkə də yazıçı Şəfəq Nasirdən bu hadisələri bütün reallıqları ilə qələmə almağını tələb etmək ədalətsizlik olardı. Ən azı ona görə ki, onun özünün formalaşmış mənəvi mühiti vardı. Biz hələ bu mənəvi mühiti axıracan təhlil etmək imkanında deyiliksə, onda nə üçün həmin hadisələrin bütün reallığı ilə təsvirini tələb edək.

Şəfəq Nasir bu yazını yazdığı vaxta qədər, ən azı hadisələrin, yəni 20 Yanvar hadisələrinin baş verdiyi zamandan qırx günlük, altmış günlük, yetmiş günlük, doxsan günlük zaman ölçüsündə... başqa sözlə, yəni ardıcıl olaraq həmin dövrü xarakterizə edən hadisələri yazıya almağa çalışıb. Məhz "Şəhid Bakı, şahid Bakı" əsəri az qala bir yazıçı ömrünün müşahidəsinə bəhs edəcək qədər müddəti özündə ehtiva edir. Çünki, yazıçı müşahidəsində hadisələrin bütün görüntüsü onun mənəvi mühitini tam özünə ehtiva edir. Şəfəq Nasir bir yazıçı olaraq yaxşı dərk edir ki, yaşadığı zamanın içində hadisələrin şahidi olan insanların dedikləri, danışdıqları yüz il sonrakı insanların, min il sonrakı insanların düşüncəsində həqiqətin güzgüsündə görünən kimi təzahür edəcək. Ona görə də, onların danışdıqlarını, sözlərini, söhbətlərini, həmin gün haqqındakı təəssüratlarını, həmin təəssüratların dəhşət dərəcələrini, sonrakı zamanda insanları qorxuya salacaq, düşündürəcək məqamları olduğu kimi verməyə çalışır. Ona görə yox ki, öz yazdıqlarını həqiqət kimi gözə soxsun, ona görə ki, "Şəhid Bakı, şahid Bakı" yazısını qələmə alır ki, həmin günlərdə Bakının yaşadığı dərdin miqyasını göstərə bilsin. Baxmayaraq ki, aradan bir il vaxt ötür. Bu vaxt ona imkan verir ki, hadisələrin heç vaxt unudulmayacağı haqqında, zamanın baş verən hadisələri barədə danışmağın heç vaxt gec olmayacağı haqqında təəssürat yaratsın.

Yazıçı üçün əsas meyar, əsas istinad nədir? Yazıçı üçün əsas meyar mənsub olduğu xalqın və daha geniş mənada bəşərin yaşarılıq haqqıdır. Əsas istinad isə yazıçının mənsub olduğu xalqın istək və arzularıdır. Təbii ki, bəşəri istək və arzularıdır. Yəni sən birini öldürə bilməzsən, digərini məhv eləyə bilməzsən, başqa birisinə haqsız olduğu tərzdə tərəf dura bilməzsən. Əgər belədirsə, Şəfəq Nasirin yaratdığı obrazın cəmiyyət, mənəvi mühit haqqındakı təəsüratları, həm də onun özünün həmin gün, həmin günün təbiəti haqqındakı mövqeyidir.

Şəfəq Nasirin "Şəhid Bakı, şahid Bakı..." əsərinin ədəbi qəhrəmanlarından biri Çingiz İsa oğlu Baxşəliyevdir. Biz inanırıq ki, həmin şəxs real olaraq həmin günlərin şahididir. O şəxs həmin günlərdə 20 Yanvar hadisələrini müşahidə edib, görüb. Və bu dəhşətləri yaşayıb. Ancaq Şəfəq Nasir həmin şəxsi, yəni Çingiz İsa oğlu Baxşəliyevi yazısının nüvəsinə gətirir, onun şahidliyinə istinad edir: "Həmin gün saat yeddi olardı, hardansa gurultu, hay-küy eşidilirdi. Həyətə düşdüm, dedilər yaxınlıqdan bir tank keçib, camaat qarşısını almaq istəyir. Qayıtdım evə ki, "Günün ekranı"na baxım, televizor işləmədi, qonum-qonşudan da xəbər aldım, dedilər heç kiminki işləmir. Bu arada həyətə bir ağ "Volqa" girdi, içindən bir nəfər bərkdən səsləndi: "Camaat, düşün həyətə, yığılın morskoy uçilişin qabağına. Bu gecə şəhərə qoşun girməlidi, gərək qabağını alaq". Eşidib-bilənlər düşüb deyilən yerə tələsirdilər. Mən də qaçdım. Orda bütün yollar böyük kamazlarla kəsilmişdi. Soyuq iliyə işləyirdi, adamlar tonqal yandırmışdılar. Saat 11-dək dayandıq. Sonra bir neçə adam Zığ şossesi ilə bir az şəhərə sarı düşdü. Şəhərdən üzü Əhmədliyə gələnlər müxtəlif xəbərlər gətirirdilər. Kimi deyirdi güllə atırlar, kimi deyirdi güllələrlə tanklar gəzir. Geriyə qayıtdıq. Havada bərk soyuqluq vardı, üşüyürdüm, qayıtdım evə. Lakin qəzəb və narahatlıq daxilimi bürümüşdü, ayaq üstə gəzinirdim. Gecə saat 1...2-yə 10-15 dəqiqə işləmiş radioda səs eşitdim: Həmvətənlərim, rus qoşunları şəhərimizə soxulublar, camaatı qırırlar, köməyə gəlin! Bu həyəcanlı, kömək uman səs onsuz da ertədən başlamış narahatlığımı artırdı. Ayaq üstə uçunurdum, ilk anda nə edəcəyimi bilmədim. Üst mərtəbəyə, qonşunun evinə qaçıb eşitdiyim xəbəri ona çatdırdım. Qonşum əhəmiyyət vermədi, əşi, elə şey olmaz, - dedi. Təzədən pencəyimin, paltomun yaxası açıq, dəli kimi həyətə, ordan da uçilişin qabağına qaçdım. Camaat hələ də topa-topa dayanıb söhbətləşirdi. İndicə radioda eşitdiyim həyəcanlı xəbəri onlara dedim. İnanmadılar, elə şey olmaz, dedilər. And-aman elədim, özümü didib-tökdüm ki, necə inanmırsınız, qulaqlarımla eşitmişəm. Bu zaman adamların arasından iki nəfər çıxıb məndən sənəd istədi, özümü itirdim, çünki üstümdə sənədim yox idi. Əlimlə qarşıdakı binanı nişan verib dedim ki, bax, mən o evdə oluram, qonşularımdan da bu izdihamın içində var, məni tanıyırlar. Gözlərim qaranlıqda adamların üz-gözünü gəzdi, bayaq mənlə az qala burun-buruna dəyən qonşular bircə anda izdihamın içində əridilər. Sonra anladım ki, nəsə bu naməlum adamların məni sorğu-sual etməsi onları qorxudubmuş. Dad eliyirdim, dediklərimə haqq qazandırırdım, o adamlar məni seyrəkliyə çəkmək istərkən... bu zaman yanımızda bir "Volqa" maşını dayandı. İçindən bir nəfər adam düşdü, camaatın arasına girdi, bərkdən dedi: Camaat, şəhərdə güllə səsindən qulaq tutulur, qırğındı, bayaq radio da dedilər. Mən özümdən ixtiyarsız qışqırdım: Bax, eşitdiniz, amma mənə inanmırdınız. Naməlum adamlar məndən əl çəkib bircə anda gözdən itdilər. Ürəyimdən keçdi ki, kaş indi şəhərin içində olaydım, o atışma səslərini qulaqlarımla eşidərdim, qırğını gözlərimlə görəydim. Bəlkə mən də bir işə yarayardım". Bu emosional, hadisələrin gərginliyini öz içində yaşayan bir insanın təbiətindən gələn hissləri varlığında, təbiətində yaşayan duyğuları dilə gətirməsi yəqin ki, asan deyil. Ancaq burada əsas tədqiqat obyekti olaraq insan götürülürsə, onda biz bu insan ətrafında düşüncələrimizi müəllifin mövqeyi ilə uyğunlaşdırmalıyıq. Ola bilər ki, biz



bu mövqe ilə razılaşmayaq, ola da bilər ki, biz həmin mövqeni tamam inkar edək, onu qəbul etməyək. Ancaq məmləkətini, xalqını, milli-mənəvi mühitinin qələbəsini arzu eləyən kimsə, ülvi duyğulardan geri çəkilə bilərmi? Şəfəq Nasir bir sənətkar olaraq, bir yazıçı olaraq bircə qəhrəmanının dili ilə olsa belə, cəmiyyətə öz sözünü deyə bilmək gücündədir. Əsas odur ki, insan varlığında, mənəvi mühitində yığılmış duyğuları bütün mənəvi ehtiyatı ilə dilə gətirə bilir. Həmin əsərin bir məqamındakı düşüncələri həm dövrün şahidi olan simanın, həm də həmin dövrün ədəbi qəhrəmanı, obrazı olaraq onun duyğu düşüncələrini ifadə edən faktların mənzərəsini görməkdə bəzi mətləbləri qədərincə dərk etməyə kifayət edərdi. "Acı düşüncələrin, qəzəbin içində elə hey gəzinirdim. Səhər o başdan saat 5, 6-ya işləmiş telefon zəng çaldı. Dəstəyi qaldırdım. 4 nömrəli xəstəxananın baş həkimi Validə xanım idi. Yoldaş Baxşəliyev, - dedi, artıq bizim də xəstəxanaya yaralılar qəbul olunur, köməyinizə ehtiyacımız var". Burada söhbət mövcud vəziyyətin görüntüsündən getməyə də bilər. Bu üç-dörd kəlmənin mahiyyətində dayanan əsas güc Azərbaycanın mənəvi mühitindəki insanın obrazından gedir. Şəfəq Nasir məhz həmin mühitdə Azərbaycan həkiminin kimliyi haqqında təsəvvür yaradır. Həmin dövrdə Azərbaycan həkiminin öz xalqının mənəvi mühiti ilə bağlılıq imkanlarını üzə çıxarır. Həqiqətən, çox az məqamlar var ki, o məqamlarda insanın kim olması, ləyaqət baxımından hansı dərəcəni kəsb etməsi görünür və təqdir olunur.

Şəfəq Nasir həmin həkimin kimliyi haqqında özgə bilgilər vermir. Amma belə bir cümləni yazısında oxucusuna çatdırır: "Xalatımı götürüb, özümü güllə kimi bayıra atdım". Bircə bu cümlənin içərisinə yığılacaq romanı Şəfəq Nasir gələcəyə ünvanlayır. Onun təbiətinin, mənəvi mühitinin zənginliyi, genişliyi ona belə bir inamı təlqin edir ki, kimsə gələcəkdə bu bircə cümlənin içərisinə yığılmış enerjini həmin nəzərdə tutulmuş romana çevirə biləcək. Şəfəq Nasirin publisistik gücü belə məqamları yazıya gətirmək baxımından təqdir olunur.

Açığı, ədəbiyyatşünas və tənqidçilərin yaradıcılığını xarakterizə edərkən, ən azı xəyal, düşüncə müstəvisindən keçirərkən, belə bir duyğu da bizi sorğuya çəkir. Çox vacibdirmi ki, olub-keçən hadisələri yazılmış müəlliflər haqqında onların yazdıqları ilə təzədən dilləşək. Ancaq zaman göstərir ki, hadisələr baş verir. Xalqlar baş verən hadisələri ən müxtəlif şəkildə təbiətlərində yaşayırlar. Əsas odur ki, bu hadisələrin xronikal mahiyyəti xalqın düşüncəsində nə qədər reallığında yaşaya bilir. Və bu zaman təbii ki, Şəfəq Nasir kimi sənətkarların adı, ünvanı diqqət mərkəzinə çəkilir. Onun yazdığının mahiyyəti heç şübhəsiz tarixi fakt, tarixi sənəd kimi qəbul olunur. Bu mənada Şəfəq Nasirin yaradıcılığında mahiyyət və önəm daşıyan həmin hadisələrin əks-sədası kimi qavranılan, "Şəhid Bakı, şahid Bakı" əsəri xüsusi istinad olaraq diqqəti zaman-zaman cəlb edəcək.

Şəfəq Nasirin 20 Yanvar hadisələri ilə bağlı düşüncələrinin mahiyyətini ifadə edə biləcək bir obraz da İsmayıl İsa oğlu Əliyevdir. Onun kimliyi haqqında heç bir informasiya məlumat vermədən müəllif çıxışını, əgər belə demək mümkünsə, bir il sonrakı xatirələrini təqdim edir: "Yanvarın 19-da axşam tərəfi evdə televizora baxırdım. Diktor elan etdi ki, AXC-nin mühim çıxışı olacaq. Fikirləşdim ki, bu çıxışa baxım və XI Qızıl Ordunun ətrafına getdim. Təxminən saat yeddiyə iyirmi dəqiqə işləmiş olardı ki, televizor birdən söndü. Doğrusu, bu qəfil hadisədən şübhələndim, amma bir qərara gələ bilmədim. Qardaşım oğlanları Fərman və Əsədlə belə danışmışdım ki, axşam Qızıl Ordu meydanında görüşək. Mən saat 7-də orada oldum, ancaq onlar gecikmişdilər. Amma mən səhv bilmişdim, onlar ümumiyyətlə orda yox idilər. Onları çox axtardım, gördüm deyən olmadı. Üstündə AXC yazılmış taksilərdəki telefonların işləməməsi də məni şübhələndirdi. Lakin bu şübhələr nə idi, başa düşə bilmirdim. Bir şey olacağını duyurdum, amma... camaat bir-birinə qarışmışdı. Hava da soyuq idi. Üşüyürdüm, fikirləşdim ki, evə dəyim, bir stəkan çay içim, sonra geri qayıdım". Buradakı nitqin, danışıq tərzinin müəllif tərəfindən yazıya gətirilməsi əslində həmin mühitin, həmin dövrün ən başlıcası həmin düşüncənin bir il sonra Azərbaycan düşüncəsindəki təkrarıdır. Bəlkə də təkrarı deyil. Bəlkə də həqiqətin xatırlanmasıdır. Şəfəq Nasir həqiqətləri bütün çılpaqlığı ilə ilk baxışdan təkrarlayır. Əslində, həmin dövrün həqiqətlərini bir insanın qavraya biləcəyi tərzdə, başqa sözlə, yazıçının, sənətkarın sözə gətirə biləcəyi gücdə etiraf edir, yazıya gətirir.

*(Davamı var)*

***Əli Rza XƏLƏFLİ***

***03.03.2020***